# Tarixi Unudmayaq

Taymaz Türk Azer

## Gerçegi bilmeyen CAHİL, gerçegi danansa CANİ'dir. S.B.

Geçmiş gelecegin çırağıdır. Tarix böyük bir dağarcıq kimi ibretler ve bilgilerle doludur. Bu sonsuz ve tükenmez bilgi xezinesi bütün heveskar insanları özüne doğru çağırmaqdadır. Bu tarixsel bilgilerden düzgün faydalanmaq ve uyğunca yararlanmaq için üç gerçegin gerekligi danılmazdır : DÜZLÜK , DERİN DÜŞÜNCE ve MÜKEMMEL BAXIŞ.

Bu üç paramétir olmadan tarixin yorumu ve vesfinden beşeriyyete héç bir fayda yétişmeyecek, ve gelecekde bu günkü toplumu yéniden xoşa gelmez olayların tekrarına getirib çıxaracaqdır. Vaqéiyyet budur ki, müxtelif dövrlerde tarix qılınc qelemi ve qan cövheri ile yazılmışdır. Béle bir şeraitde bir sorğu ortaya çıxır : Göresen tarixin bu qanlı sefhelerinin açılmasında gizlenen tehlikelere baxmayaraq, o qara hadiselerden danışmaq gelecekde béle facielerin qabağını almaqda kömek édebilecekmi?! Beli, yalnız ve yalnız üstdeki ilke ve prinsiplere dayanmaqla bu iş mümkün olabiler.

Bölge müselmanlarının tarixinde dehşetli dövrlerden biri son 200 ilde Azerbaycan, İran, Qafqaz, orta Asya ve kiçik Asya(Anadolu)'da baş-vérmiş acı ve can-yaxan müsibetlerden ibaretdir. Bu müddetde 10 milyondan artıq müselman türk , İslavlar, Érmeniler ve Yunanların eliyle qırğın édilmişdir. Bu dört böyük bölgenin qanlı tarixinde en acı olaylar aşağıda teqdim édilir :

## İRAN BÖLGESİ

1. İran ve Rus dövletleri arasında dört qanlı savaşın baş-vérmesi :

Bu savaşların sonucu, **Abbas Mirze** kimi böyük başçıların unudulmaz şehameti ve şücaetlerine ve **Cavadxan** tek qehremanların can-feşanlıqlarına baxmayaraq vehşi düşmenlerin amansızlığı, Rusların modérn cihazlar Émenilerin xeyaneti neticesinde Azerbaycan'ın parçalanmasına getirib çıxarmışdır. Bu döyüşlerde Érmenilerin bir sayısı Ruslarla çigin-çigine vuruşaraq, İravan, Üçkilise ve Gence kimi türk şeherlerinde acınacaqlı suquta uğramasına sebeb oldudar. Hetta 1825'in yazında Rus qoşunu'nun kamandéri général *Paskoviç*, Tebriz'e çatarken bir sıra Érmeni késişi xaçla işğalçıların qarşısına çıxıb, onları tebrik étmişler. Ancaq tarix xatırladır ki, be'zi

Érmeniler de vardı ki, soydaşlarının bu çirkin ve xeyanetli emelleri ıle razılaşmayıb ve özlerinin hésablarını xainlerden ayırmışlardır.

2. Çar Rusyası'nın İran ve günéy Azerbaycan'a basqın étmesi, Azerbaycan'dakı Meşrute qehremanları'nın azadlıq uğrunda savaşları ile bir zamana tesadüf étmesi

Azerbaycan milleti'nin aylar süren istibdada qarşı dayanış ve direnişleri özellikle Tebriz'in igit qız ve oğlanları'nın ***Memmed Elişah***'ın qara diktatorluğuna qarşı 11 aylıq misilsiz muqavimetlerinden sonra, Rusların qanlı nacağı birden Azerbaycan'ın başına éndirilerek, yüzlerce Meşrute mucahidi'ni dehşetlicesine şehid édir. Şehid Tebrizli **Siqet-ül-İslam** ile birlikde on neferin o cümleden **Eli Misyo**'nun iki günahsız oğlunun 1330 h.q. ilinin Aşurasında Tebriz'de vehşicesine asılması, Rusların qesavetinin son derecesini gösterir ve onların muqeddesata ehanet étdiklerini subut édir. Tebriz hadiselerinde be'zi xristiyan Meşruteçi mucahidlerin azadlıq-séver türklerin kenarında döyüşmelerine baxmayaraq Érmeniler be'zisi géçmişde olduğu kimi düşmenlerin cergesine qoşularaq milletimizin soy-qırımına el atmışlardır.

3. Azerbaycan'ın batı şeher ve kendlerinde türklerin özge-séver caniler ve xainlerin eliyle qırğın ve qetliam édilmesi

1335 h.q. ilinin ramazan ayında birinci dünya savaşı ıle bir zaman Érmenilerin Assori ve xristiyan **Cilovlar** ve Batı Azerbaycan'da sepelenmiş Rus eskerleri'nin iştirakı ile , yabancı dövletlerin alqışıyla bölgedeki oruc milleti qırmağa başladılar. Rusya, Fransa ve Amérika konsulluqlarından elde étdikleri silahlar ve maddi yardımlardan yararlanan Érmeniler, ölüm covğaları yaradaraq şeherleri ve kendleri odlamağa başlayıb ve Urmu, Xoy, Salmas, Makı, Gerus kimi şeherlerde onlar min nefer sucsuz-günahsız insanı rehmsizcesine qırğın étdiler. Bu qan töken xaç-tapanların vehşiyana yürüşleri Usmanlı dövleti'nin İsalam Ordusu'nun bölgeye girmesiyle dayandırılıb ve müselmanlar xain ve canilerin elinden qurtarılır.

4. Meşrute inqilabı qelebesi'nin értesi günündeki xeyanetler

Érmenilerinbir sırası Meşrute inqilabı qelebesi'nin gününün sabahısı Téhran'da öz xeyanetlerini davam étdirirler. Örnek olaraq Atabay bağı macerasında Érmeni Yéprémxan, milli Serdar Settarxan'ı hedefleyerek **Şerqin Garibaldisi**'ni şehadete çatdırır.

## QAFQAZ BÖLGESİ

1. Orta ve quzéy Qafqaz müselmanlarının ağ ve qızıl Ruslar terefinden qırğını 1783'de Çéçénistan'da Şıx Mansur'un üsyanından 1943'de Stalin'in emri ile üzücü şekilde Qafqaz türklerinin öz doğma yurdlarından sürgün édilmesine dek bölgenin yüzler min müselman

türkü Rusların eliyle qetliam édilir. Bu sürede Şıx Şamil, İmam Hemzebey, Uzun Hacı, Şıx Necmeddin ve İsrafilov kimi böyük qehremanlar Ruslara qarşı ayağa qalxmıxlardır. Hal-hazırda béle Rusların 90'lardan beri orta Qafqaz'da özellikle Çéçénistan'da başlatdıqları yéni dövr cşnayetleri durmadan vehşicesine sürmekdedir.

2. Günéy Qafqaz'da Érmenilerin İran'dan ayrılmasından beri, Érmeniler Rusların destegi ile türklerin topraqlarını elde étmege çalışmışlardır. İndiye kimi Érmeniler bu hedefe çatmaq için üç böyük qırğın dalğasını bölgede yola salmışlardır :

- 1905-1906'da Bakı, Gence, İravan ve Tiflis qanlı qırğınları
- 1917-1919'da déyilen şeherlerde ve habéle Axaltsıx, Erdehan, Qars, Burçalı, Fizuli, Naxçıvan ve Zengezur qırğınları
- 1988-1994'de Qubadlı, Fizuli, Xocalı, Laçın, Ağdam, Kelbecer, Xankendi, Şuşa ve Cebrayıl qırğınları

Bu üç soyqırımında bir milyona yaxın müselman Azerbaycan türkü şehid édilmiş ve Azerbaycan topraqları'nın böyük bir hissesi o cümleden Qarabağ, **Zengezur**, ve Göyçe gölü mütecaviz Érmenilerin eline géçmiş, yüzler min Azer türkü quldur Érmeni Daşnaqları ve Panérmenilerin eliyle yurdundan sürgün édilmişlerdir. Bu quldur caniler hetta öz xalqına béle rehm étmemişler.Qan-içen Daşnaqlar'ın biri Nairi Honanian 1378'in payızında bir cinayetçi çetenin başçılığıyla Érmenistan parlımanı'na girerek parlıman başqanı Karén Demirçian ve dövlet başbaxanı Vazgén Serkisian 8 baxanı ve Robért Koçarian dövleti'ne qarşı olan millet vekillerini güllelemişdir. Ancaq Érmeni xalqı'nın néçe döne é'tirazlarına qarşın hele de térrorçu ***Daşnaq*** üyeleri, N. Honanian ve R. Koçarian mühakime édilmemişlerdir.

## ORTA ASYA BÖLGESİ

1. Rus işğalçıları'nın Türküstan'a yürüşü, milyonlar müselman türkün ağ ve qızıl Rusların eliyle soyqırımı, tarixin en böyük cinayetlerinden sayılır. 19'cu yüzilligin başlanğıcında Çar Rusyası'nın bu géniş ve éngin bölgeye qanlı saldırmaları, yüzler min müselmanın qetli, türk döyüşçülerin Göy Tepe'de yénilmesi ve bölgenin Rusların eline géçmesiyle sonuclanmışdır.

2. Basmaçılar üsyanı ve müselman türklerin Rusların eliyle soyqırımı

Türküstan'da qırğınların ikinci böyük dalğası, Boşévik Rusya'ya qarşı 1917'de Basmaçıların üsyanı ile çağdaşdır. Bu ezemetli milli-islami qalxışın ardıca, Rusların eliyle türklerin soyqırımı başlamış ve 6 milyon sucsuz ve günahsız insanın ölümüyle neticelenmişdir.

## KİÇİK ASYA veya ANADOLU BÖLGESİ

Tarixi begelere göre, bir sıra Érmeni Yunan vetendaşı Usamanlı impératorluğu'nda Rusya, İngiliz ve Fransa'nın amil ve casusları kimi davranmişlardır. Bunlar hetta Balkan savaşlarında da Usmanlı ve Çar döletleri arasındakı savaşlarda ve habéle birinci dünya savaşında düşmenlerin ordularına qatılaraq öz vetenşerine qarşı xaincesine vuruşmuşlardır. Bu müddetde Érmeniler, térrorçu Daşnaq ve Hinçaqlar'ın alqışı ve tehriki ile Iğdır, Erdehan, Bakı, Qars, Doğu bayezid, Van, Erzurum, Diyarbakır, Gazıyantepe, Samsun, İzmir, Erzincan, İskenderun ve Salonik kimi şeherlerde ve habéle Qıbrıs ve Krét adalarında 1.5 milyondan artıq türk, Acar, Çerkes, Laz, Gürcü, Azerbaycanlı ve Ereb'i qetliam étmişlerdir.

Üstdeki setirler müselman türk topraqlarının dört bölgesinde qanlı ve qalın tarix kitabından yalnız birce damlasıdır.

İndi bir daha vurğulayırıq ki, gerçegi ve haqqı bileyerekden danan canidir. Béle bir şeraitde Érmeniler barış ve dostluğu düşünmekdense qabardılmış ve yalan siyasete dayanmış öz yalançı xeyal ve efsanelerini siyonistler tek tarixsel vaqéiyyetler olaraq qeleme vérir ve bbarış-séver türklere kinli qılınclar çekirler.

Doğrusu bizim içimizde onlar milyon günahsız insanın qanlı yaralarından alovlanan bir yanar-od ve ateş var.

***BİZ HAQQIN VE GERÇEGİN GÜCLÜ MÜDAFÉİ OLARAQ,***

***ZÜLMÜN KESKİN MÜXALİFİYİK***

***YAŞASIN AZERBAYCAN***

***YAŞASIN BARIŞ-SÉVER AZERBAYCAN MİLLETİ***